Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Komissiyanın sədri

Artur Rasi-zadə	-	Azərbaycan Respublikasının Baş naziri

Komissiyanın üzvləri

Elçin Əfəndiyev	-	Azərbaycan Respublikası Baş nazirinin müavini
Akif Əli Zadə	-	Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Əbülfəs Qarayev	-	Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri
Oqtay Şirəliyev	-	Azərbaycan Respublikasının səhiyyə naziri
Mikayıl Cabbarov	-	Azərbaycan Respublikasının təhsil naziri
Abbas Ələsgərov	-	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri
Arif Mehdiyev	-	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri
İsmayıl Sadıqov	-	Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri
İbrahim Quliyev	-	Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
İsa Həbibbəyli	-	Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
İsmayıl Hacıyev	-	Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri
Əhliman Əmiraslanov	-	Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb elmləri bölməsinin akademik-katibi
Ömər Eldarov	-	Azərbaycan Rəssamlıq Akademiyasının rektoru
Abel Məhərrəmov	-	Bakı Dövlət Universitetinin rektoru
Siyavuş Kərimi	-	Azərbaycan Milli Konservatoriyasının rektoru
Çingiz Abdullayev	-	Azərbaycan Yazıçılar Birliyinin katibi
Cəlal Abbasov	-	Azərbaycan Bəstəkarlar İttifaqının katibi
Altay Hacıyev	-	xalq rəssamı
Arif Məlikov	-	xalq artisti
Şəfiqə Məmmədova	-	Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri
Elbay Qasımzadə	-	Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri
Mövlud Süleymanlı	-	xalq yazıçısı
Məhərrəm Qasımlı	-	Azərbaycan Aşıqlar Birliyinin sədri

2. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1515) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2016-cı il